

***“Azərbaycan” qəzetinin 315-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 6 noyabr 1919-cu il, nömrə 315**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 12 səfərül-müzəffər sənə 1338. 6 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ELAN

1919-ncu sənə noyabrın 6-da pəncşənbə günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

## SİRK “MODERN”

Pəncşənbə [cümə axşamı] günü noyabrın 6-nda 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: İkimci dəfə Qara Maska – Zakoroyko; 2-nci: Qafqaz mübarizəsi Staroşvili – Yemelyanov; 3-ncü: Qəti mübarizə Muznik – Raqenbaum.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Bu günlərdə dünyada məşhur pəhləvanlardan Aleksandr Boqatıryovun benefisi hazırlanır. O gün böyük mübarizələr olacaqdır.

*14017*

## DÖVLƏT TEATROSU

### Azərbaycan Dövləti Teatro heyəti

Cümə günü təşrini-saninin (noyabrın) 7-ndə axşam Dövlət Teatrosunda mövqeyi-tamaşaya qoyulacaqdır “Nadir şah”, Nəriman Nərimanovun əsəri, dörd məclis, yeddi şəkildə. Tamaşa başlanacaq axşam saat 8 tamamda.

Biletlər teatrın kassasında satılmaqdadır. Rejissor A. A. İvanov, müavini-rejissor Hacıbaba Şərifov, növbəti rejissor A. M. Şərifzadə.

Gələcək tamaşa təşrini-saninin (noyabrın) 11-də “Trablis müharibəsi və yaxud Ulduz”.

Mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır: “Dövləti-bisəmər”, “Əlmənsur”, “Qaçaqlar”, “Otello” və “Hamlet”.

*Dövləti Teatro vəkili: M. Ə. Sidqi*

*T-320*

* * *

Azərbaycan Dövləti Teatro Heyəti Müdiriyyətinə opera və operetta oyunları üçün “xoristlər” lazımdır. Yaxşı səsə malik olanlar səsinin imtahanı üçün visdirektor Zülfüqar bəy Hacıbəyliyə müra-

ciət etməlidirlər. Ancaq yaxşı səsi olanlar qəbul ediləcəklər.

Adres: Dumski ploşçad, Haşımovun 11 nömrəli mülkü.

*Dövləti Teatro heyəti vəkili:*
*M. Ə. Sidqi*
*T-319*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*3 təşrini-sani iclası*

İclas saat 12:05 dəqiqədə açılır

**Sədr** - Ruznameyi-müzakirat [müzakirə gündəliyi] keçən dəfə iclas tərəfindən qəbul edilmişdir. Bu kərə yalnız daxil olmuş kağızlar elan ediləcək. Ruznameyi-müzakiratdan qaçqınları məhəllərində [yerlərində] sakin etmək qanun layihəsi bu gün növbədən götürülür. Çünki bu qanun layihəsi fraksiyonlara göndərilmədiyindən, fraksiyonlar onunla hələ aşina olmamışlardır. Sonra "Əhrar" fraksiyası üzvü Əşrəf Tağıyevdən bu məzmunda bir məktub daxil olmuşdur. *(Oxuyur)*

*"Möhtərəm əfəndim! Bəndəniz "Əhrar" fraksiyonundan xaric olub, Parlamanın "Müsavat" fraksiyasına daxil oluram.*

*Əşrəf Tağıyev"*

Neçə Parlaman üzvlərinin imzası ilə hökumətə bir sual varid [daxil] olmuşdur. Bu sual iclasın axırında elan ediləcəkdir. Növbədəki məsələ sabiq əmanət sandıqlarının 12 milyon borcunun hökumət tərəfindən verilməsi barəsində qanun layihəsinin 3-cü qiraətidir.

İşbu layihə bilaetiraz [etirazsız] qəbul olunur. 2-ci layihə Ziraət və Əmlak Nəzarətindəki aqrar tənzimatının [islahatının] 1919-cu il üçün ştab və məsarif smetası haqqındadır. Bu da 3-cü qiraətdə bilaetiraz qəbul olunur.

3-cü layiheyi-qanuniyyə Göyçayda realnı məktəbi açılmaq barəsindədir. Bu xüsusda **Sultanməcid Qənizadə** bir nitq söyləyir. Açılacaq bu məktəbin nə qədər əhəmiyyəti olduğuna işarə edərək deyir ki:

Bu məktəb yalnız Göyçay üçün olmayıb, onunla həmcivar [həmsərhəd, yaxın] olan Ağdaş, Şamaxı və Kür qırağından uşaqlar gələcəkdir. Bu uşaqlar da Göyçayda qalmaq məcburiyyətində olacaq. İndiki halda istər Şamaxıdan, istər Ağdaşdan uşağını Göyçaya göndərən bir ata onu kimə tapşıracaq, o uşağa kim pərəstar [himayəçi] olacaq? Uşaq oxutduranlar üçün böyük bir müşkülat törədəcək, bir çoxlarını uşaqlarını oxutmağa mane olacaqdır. Bunun üçün təklif edirəm ki, haman açılacaq məktəb cənbində [nəzdində] hökumət xərci ilə bir pansion açılsın. Bunsuz məktəb tərəqqi edəmməz. Lazım qədər mütəallim [şagird] toplayammaz.

Bununla bərabər təklif edir ki, bu il vaxt keçdiyindən məktəb ancaq gələcək sənədən açılsın, özü də orta xalq məktəbləri şəklində olsun.

**Rza bəy Ağabəyov** *(məruzəçi)* - Qanunun 3-cü qiraəti olduğundan, ona yalnız bəzi cüzi təshihlər ola biləcəyinə işarə ilə onun əsasına tənqid etmək qeyri-mümkün bir şey olduğunu iddia edir. Pansion təklifinə isə deyir ki:





Ancaq bunu yalnız arzu etmək olar. Çünki indiki şərait altında məktəblər cənbində pansion saxlamaq qeyri-mümkündür. Bir halda ki, Bakı kimi mərkəzdə realnı məktəbi cənbində pansion saxlamaq olmayır, Göyçay kimi uzaq yerlərdə də mümkün olmaz.

**Muxtar Əfəndi[zadə]** - Məktəbin açılmasına əsasən zidd olmadığını bəyan edir. Fəqət hər şeydən öz yolu ilə olmasını istədiyini söyləyir. Deyir ki:

Göyçay mərkəz olmadığından, orada bir mahal üçün məktəb açmaq doğru deyildir. Bu məktəb yalnız Göyçay üçün ola bilər. Göyçayı mərkəz qərar verib orada məktəb açmaqda yanlışlıq var. Bundan anlaşılır ki, bizim Maarif naziri məmləkət daxilindən, həyati-ictimaiyyəsindən bixəbərdir. Göyçayda açılacaq məktəbdə ancaq 15-20 uşaq oxuyacaqdır.

Sözünü xülasə edərək deyir ki:

Göyçayda məktəb açılmasına tərəfdaram. Bununla bərabər, məmləkətin sair yerlərində də böylə məktəblər açılsın.

Sonra Göyçayda məktəb açılmasından bəzi şübhələrə düşdüyünü, bundan ayrı şeylər hiss etdiyini bəyan edir. Sədr ona mətləbdən kənar çıxmamağı tövsiyə edir. Deyir ki:

Burada şübhə ediləcək bir şey yoxdur. Ortada Göyçayda açılacaq məktəb layihəsi var. O layihə haqqında rəyinizi söyləyə bilərsiniz.

**Sultanməcid [Qənizadə]** - 2-ci kərə kürsiyi-xitabətə çıxaraq Ağabəyova cavab verir. Bakı Realnı məktəbi cənbindəki pansionun nə səbəbə bağlandığını şərh edir. Deyir ki:

Sabiqdə yalnız Bakıda realnı var idi. Şamaxıdan, Salyandan, hətta Teymurxan-Şuradan buraya uşaqlar gəlirdi.

Sonra oralarda böylə məktəblər açıldığından, ətrafdan Bakıya bir o qədər mütəəllim [şagird] gəlmədi, onun üçün pansion bağlandı. Göyçayda isə pansion lazımdır.

Sonra məktəbin gələn sənədən açılmasına keçərək, onun üstündə israr edir. Qanun layihəsinin gələcək iyundan qəbulunu təklif edir.

Son söz məruzəçiyə verilir.

Məruzəçi, Muxtar Əfəndiyə cavab verir. Sonra Sultanməcidə cavab verir. Deyir ki:

İndidən buraxılan paralar yalnız məktəb üçün bəzi ləvazimat və sairənin alınmasına sərf ediləcək. Bu surətlə məktəb də ancaq gələn il açılacaq.

Əgər gələn sənədən qəbul edəcək olarsaq, o zaman məktəb ancaq gələn il deyil, o biri il açıla biləcəkdir.

Sədr maddəni səsə qoyur. Əksəriyyətlə maddə komisyonun qəbul etdiyi qərar üzrə qəbul olunur.

2-ci maddə də bilaetiraz qəbul edilməklə bərabər, qanun layihəsi qəbul edilir.

Növbədəki məsələ Bakıda fəhlələrin işləyən yerlərində miqdarsız içki və spirt işlənməsinin önünü almaq barəsində qanun layihəsidir. Məruzəçi Əhməd Cövdət [Pepinov].

**Əhməd Cövdət [Pepinov]** - Sabiqdə içkinin qadağan edildiyindən məlumat verir. Sonra Maliyyə Nəzarətinə fəhlə rayonlarında içki satışının qadağan edilməsi xüsusunda firmalar və fəhlə təşkilatları tərəfindən bir xahiş varid [daxil] olduğunu söyləyir və deyir:

Maliyyə Nəzarəti bu xüsusda bir qanun layihəsi tərtib vermiş, bu qanun layihəsi hər nə qədər içkini tamamilə ləğv etməyirsə də, lakin yenə içki istemalatının [içkidən istifadənin] qarşısını alır. Komisyon bunu qəbul edib, Parlamandan qəbulunu xahiş edir.

**Əliheydər Qarayev** - Nitqində deyir ki:

Bu qanun layihəsi mövcibincə, fəhlə rayonlarında içki dükanları qapanırsa da, şəhərdə qapanmayır. Bundan əgər məqsəd fəhlələrin məişətini bir növ düzəltmək isə o zaman fəhlə mədəndən şəhərə gəlib burada içər. Bu, fəhlə üçün bir qədər də baha tamam olar.

Təklif edir ki, içki ilə ciddi mübarizə edilsin, kimsəyə onun satışına ixtiyar verilməsin.

Sırada natiq olmadığından, son söz məruzəçiyə verilir.

**Əhməd Cövdət** - Qarayevə cavab verir, etiraf edir ki:

Maliyyə naziri öz məruzəsində məlum etmiş ki, hər nə qədər bu, içkini tamamilə mən [qadağan] etməyirsə də, bir növ qarşısını alır. Xüsusən əmələ rayonlarında. Bir də, əmələ təşkilatları tərəfindən əmələlər arasında içkinin qadağan edilməsi xahiş edildiyindən, bu qanun layihəsi tərtib edilmiş. İndilikdə bu qanun bir növ içki ilə mübarizə edir. Bunun üçün layiheyi-qanuniyyəni qəbul etməlidir.

Qanun layihəsi əsasən qəbul edilərək, 2-ci qiraətinə keçilir.

Maddəbəmaddə oxunaraq səsə qoyulur. Layiheyi-qanuniyyə 2-ci qiraətdə qəbul edilir. 5 dəqiqə tənəffüs elan edilir.

Tənəffüsdən sonra Zaqatala şəhərinə faizsiz olaraq on il müddətinə 70 min manat borc verilməsi haqqındakı qanun layihəsi müzakirə edilir Məruzəçi **Əhməd Cövdət** bu xüsusda bəyanat verir. Deyir ki:

Bir çox şəhər idarələri, məxaricləri çox olduğundan, öz işlərini düzgün apara bilməyirlər, hökumətdən borc istəməyə məcbur olurlar. Gəncə və Bakı bələdiyyələri bundan istifadə etmişlərdir. Zaqatala da bundan istifadə etmək istəyir. 70 min manatı ildə 7 min manat verməklə, 10 il müddətinə qaytaracaqdır.

Zaqatala şəhərinin bu vaxtadək borc istəmədiyini nəzərə alıb, qanun layihəsinin qəbulunu xahiş edir.

Qanun layihəsi etirazsız qəbul edilir.

Növbədəki məsələ Quba Bələdiyyə İdarəsinə 57.460 manat buraxılması barəsində qanun layihəsidir.

Məruzəçi Əhməd Cövdət əfəndi bu barədə izahat verir. Məlum edir ki:

Quba Bələdiyyə İdarəsindən hökumətə bir müraciət gəlmiş, onda denilirmiş ki, bolşeviklər Qubanı aldıqda, Bələdiyyə İdarəsinin bir çox qiymətli kağızlarını tələf etmişlər. Onların qiyməti 57.460 manatdır. İşbu paranı Quba bələdiyyəsi hökumətdən istəyir. Maliyyə-Büdcə komisyonu prinsip nöqteyi-nəzərindən bolşeviklərin iras etdiyi [törətdiyi] zərəri verə bilməz. Quba bələdiyyəsinin bu xahişini rədd etmiş. Əgər Quba bələdiyyəsi bu paranı tənzimat [islahat] üçün istəmiş olsaymış, o zaman vermək mümkün olarmış. Binaənileyh [ona görə], məruzəçi təklif edir ki, Quba bələdiyyəsinin bu xahişi Maliyyə-Büdcə komisyonu tərəfindən rədd edildiyi üçün Parlaman tərəfindən də rədd edilsin.





**Murtuza Axundov** - Minbəri-xitabətə çıxıb bəzi sözlər söyləyirsə də eşidilməyir. Yalnız nitqinin axırında bu sözləri deyir:

Mən deyirəm ki, bu pul Quba bələdiyyəsinə bilaiadə [qaytarılmamaq şərti ilə] verilsin.

**Əliheydər Qarayev** - Əsasən bələdiyyələrə para buraxmağa zidd gedir. Getgedə məmləkətimizin ticarət və iqtisadi işləri aşağı düşdüyünə işarə edir və deyir ki:

Mən heç bir zaman şəhərlərə təxsisat [vəsait] buraxmaya razı deyiləm..

**Mehdi bəy Hacınski** - Əliheydərə cavab verir. Şəhərlərin xaraba halına düşdüyünü qeyd edir.

**Əhməd Cövdət** - Müarizlərə [etiraz edənlərə] cavab verir. Deyir ki:

Bu gün Bakı və Gəncə kimi abad və böyük şəhərlər barəsində təxsisat buraxmağa zidd getmək bəlkə mümkün olur. Kiçik şəhərlərə isə doğru olmaz.

Sonra, buraxılacaq paranın nəyə sərf edilməsi məsələsinə keçərək komisyon tərəfindən razı olur ki, layihə təkrar komisyona qaytarılsın. Layihə sıradan götürülür.

Vaxt gec olduğundan, məsələlərin müzakirəsi qurtardığı elan edilir. Məclisin əvvəlində məlum edilən suala baxılır. Sual Şamaxı qaçqınlarının barəsindədir. Əhməd Cövdət sualı oxuyur.

**Mehdi bəy Hacıbababəyov** - Şamaxı qaçqınları barəsində 2-ci dəfə minbəri-xitabətə çıxıb söz söyləməsinə işarə edir. Şamaxı şəhərinin vaxtilə Azərbaycanda nasıl abad və məmur [abadan] bir şəhər olduğunu qeyd edir. Deyir ki:

Parlamana sair yerlər qaçqınları haqqında bir neçə qanun layihələri daxil edilmişdir. Bununla bərabər, bir çox sair layihələrə də burada baxılmışdır. O cümlədən olaraq bu gün Göyçayda məktəb açmaq layihəsini qəbul etdik və halbuki Şamaxı qaçqınlarının halı, Şamaxı şəhərinin vəziyyəti daha mühümdür. Əgər hökumət Şamaxıya müavinət edəcəksə etsin, etməyəcəksə məlum etsin, xalq da öz işini bilsin.

Hökumət əzasından [üzvlərindən] Parlamanda olmadığından, sual hökumətə göndərilir. İclas saat 3 tamamda qapanır.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən qəbul edilmişdir)*

5 təşrini-əvvəl

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Fin körfəzi səvahili [sahilləri] dairəsində və Qatçina cəbhəsində bizim qoşunlar neçə gün imtidad edən [uzanan] vuruşmalardan sonra Yudeniç ordusu müqavimətini sındırmışlardır.

Bizim düşməni təqib edən hissələrimiz Qatçinaya daxil olmuşlardır. Düşmən təqibi davam edir.

Luj dairəsində bizim qoşunlarımız vuruşma ilə Vindava dəmiryolunda olan Çelov və Preobrejenski mövqiflərini işğal etdilər.

Qdov cəbhəsində bizim hissələrimiz Luqadan 16 fərsəx şimal-qərbdə olan Sabskoe köyü xəttinə çatmışlardır.

Borisov cəbhəsi - Dəmiryol xətti dairəsində güclü vuruşmalar davam edir.

İquumen cəbhəsində - Bizim qoşunlarımız Berezinanın 10 fərsəx şərqində vuruşmadadırlar.

Novqorod-Volınsk dairəsində bizim hissələrimiz Novqorod-Volınskdan 30 fərsəx şərqdə olan istehkamlarından düşmənin təzyiqi altında yeni istehkamlara çəkilmişlərdir.

Kiyev dairəsində - Fastovun 20 fərsəx şimal-qərbində vuruşmalar davam edir.

Kursk cəbhəsində - Kursk dəmiryolu xətti uzunu ilə əvvəlki istehkamlarda vuruşmalar davam edir. Yolun qərb və şərq tərəfindən hissələrimiz irəli hərəkətlərində davam etməkdədirlər.

Livna dairəsində - Bizim hissələrimiz şiddətli vuruşmaları əsnasında düşməni Livna şəhərindən çıxarıb şəhərin cənub və qərbinə yürüşlərində davam etməkdədirlər.

Borisoqlebsk cəbhəsində - Bizim hissələrimiz yürüşlərində bərdavamdırlar. Povorino 16 fərsəx cənub-qərbində olan Polyanka mövqifini işğal etmişdir.

Tsaritsın cəbhəsində - Volqa nəhrinin sol kənarında bizim hissələrimiz Tsarevdən düşməni çıxarmışdırlar.

Petropavlov dairəsində – Bizim qoşunlarımız Petropavlovun 30 fərsəx cənub-şərqində olan xəttə qədər hərəkət etmişlərdir. Şimal tərəfində yürüşümüz davam edir.

İşim dairəsində - İşim şəhərinin 25 fərsəx cənubunda olan Marikeni ... İşimin sağ kənarına keçilməkdədir.

Tobol dairəsində bizim yürüşümüz kəsbi-dairə etməkdədir [genişlənməkdədir].

**Tsaritsında**

Saratov - Tsaritsında qarətlər davam etməkdədir. Əlkühul [alkoqol] üçün axtarıldığı əsnasında apteklər talan edilmişdir. Həmsənətkarlar [Həmkarlar] ittifaqları dağıdılmışdır. Bütün kəndlər boşadılmışdır. Qaramallar qovulmuş, taxıl aparılmışdır. Əhalinin gündən-günə iğtişaş qaldırması gözlənir.

**General Bredova sui-qəsd**

Ağ qvardiya qəzetələrindən "Kuryer polski" xəbər verir:

*"Kiyev qubernatoru general [Nikolay Emilyeviç] Bredovun getdiyi arabaya bir bomba atılmışdır. Bredov ağır surətdə yaralanmışdır."*

**Xilas edilmiş yerlər**

Saratov - Ağlardan xilas edilmiş Hacı-Tərxan quberniyası kəndçiləri Qırmızı ordunu məsərrətlə istiqbal edirlər [sevinclə qarşılayırlar]. Külli surətdə ərzaq və çörək verirlər. Qırğız səhralarında könüllü səfərbərlik elan edilmişdir. Qırğızlar həvəslə Qırmızı orduya daxil olurlar.

**Abluka götürülməsini tələb edirlər.**

Nauen - Skandinaviya bəhriyyunları [matrosları] Daniya [Danimarka], Şved [İsveç] və Norveç hökumətlərinə Müttəfiqlərdən ablukanın qət edilməsini [blokadanın kəsilməsini] xahiş etmək üçün müraciətdə bulunmağı qərara almışlardır.

**Amerikada böyük tətil**

Samara - Sibiriya qəzetələrinin verdikləri məlumata nəzərən, Amerikada olan tətil get-gedə inqilab surətini almaqdadır. Boston valisi sürətlə polis müavinətinə qoşun göndərilməsini tələb etmişdir.

Əyanlardan [senatorlardan] Beyer, hərgah Konqre tərəfindən inqilab hərəkətlərinin yatırılmasına dair tədabir ittixaz edilməyəcək [tədbirlər görülməyəcək] olarsa, polis nəfəratının əmələlərlə birləşəcəyini bəyan etmişdir. Ondan sonra Amerikada dəhşətli bir müsəlləh [silahlı] qüvvə əmələ gələr və bu qüvvə bolşevik prinsiplərinin təntənəsini mövcib [təntənəsinə səbəb] olar.

**Şərqdə**

Misirdə, İsgəndəriyyədə yenidən küçə vuruşmaları olmuşdur. Əsgərlər qiyamçıları mitralyoz vasitəsilə pərakəndə etmişlərdir. Qahirədə böyük nümayişlər olmuşdur. Polis ilə əhali arasında olan toqquşmadan sonra küçələrdə bir çox yaralılar və meyitlər qalmışdır.

**Paraların qeybi**

Nauen - Stokholmda Yudeniç hökuməti üç yüz milyon miqdarında kağız para sifariş etmişdir. Bu paralar Revelə göndərildikdə, Stokholm limanında onun bir çox hissəsi qeyb edilmişdir.

**Hindustanda həyəcan**

Çelyabinsk - Sibiriya qəzetələrinin verdikləri məlumata nəzərən, Hindustana xaricilərin gəlməsi mən' [qadağan] edildiyi üçün həyəcan başlanmışdır.

**Amerikada dağ mə'dəni əmələlərinin tətili**

Nauen - Cəmahiri-Müttəfiqədə [Birləşmiş Ştatlarda] elanı-tətil etmiş olan dağ mə'dəni əmələlərinin miqdarı 400,000 hesab edilir. Dağ sənaəti [sənayesi] mərkəzinə qoşun cəm edilməkdədir. Hər bir tətil edənə qanunu xələldar edən [pozan] kimi baxılacağı haqqında hökumət bir bəyannamə nəşr etmişdir. Tətil hərəkatının başçılarından 35 nəfəri əleyhinə ədliyyə məmurları tərəfindən təhqiqata başlanılmışdır.

*(Gürcü teleqraf acentəliyindən)*

**Fransa mətbuatı**

**Konfransa nümayəndə təyini**

Qaradağ sabiq Vükəla Şurası [Nazirlər Kabineti] rəisi Radoviç Qaradağ və Serbiya hökumətləri tərəfindən Sülh Konfransına nümayəndə olaraq təyin edilmişdir.

**Fiume məsələsi**

Məlumatlı dairələrin təsdiqinə nəzərən, anlaşıldığına görə, Cəmahiri-Müttəhidə Fiumenin heç bir vaxtda İtaliyaya verilməsinə razı olmayacaqdır.

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Aland cəzirələri**

Helsinqforsdan [Helsinkidən] verilən xəbərlərə görə, Finlandiya Şved hökumətinə bir nota ilə müraciət etmişdir. Notada denilir ki:

*"Aland cəzirələri [adaları] həm coğrafi və həm etnoqrafi cəhətlərdən Finlandiya ilə əlaqədardır. Hərgah bu cəzair [adalar] əhalisi Şvetsiya [İsveç] təbəəsi olmaq rəyini verirsə də, bu da ancaq Rusiya*

*tərəfindən onların əleyhinə görüləcək təzyiqat xatirəsindəndir."*

**Fransanın Almaniyada nümayəndəsi**

İsveçrədə olan Fransa işləri müvəkkili Kleşal Fransanın Berlində diplomasi nümayəndəliyinə təyin edilir.

**Amerikada tətillər**

Çikaqo və başqa şəhərlərdən verilən xəbərlərə nəzərən, tətil hərəkatı bu dairələrdə get-gedə kəsbi-dairə etməkdədir [genişlənməkdədir]. Polis nəfəratı ilə toqquşmalar da olmuşdur.

**Fon der Qolts**

General [Rüdiger] fon der Qolts axırıncı əmrində Baltik səvahilindən [sahilindən] dəmir firqəni [diviziyanı] göndərməyə heç vaxtda bir qədəm irəli qoymayacağını və namusla ölməyi buna tərcih verməyi bəyan edir.

**Cəmahiri-Müttəfiqə və Kolçak**

Amerika qoşunlarının Sibiriyada olan komandanı general Qreyvs və səfir Morrisin Omsk şəhərinə səfərlərindən sonra, Cəmahiri-Müttəfiqənin admiral Kolçak ordusunun təchizini öhdəsinə götürməyini xəbər verirlər. İngiltərə isə Şimali Rusiyanı təchiz edəcəkdir. Cəmahiri-Müttəfiqə Sibiriyada Səlibi-əhmərin [Qızıl Xaç cəmiyyətinin] saxlanılmasını öhdəsinə qəbul etmişdir.

**Cəmiyyəti-Əqvam**

Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] 1-ci cələsəsinin [iclasının] gələn sənənin ibtidasından [əvvəlindən] tez olmayacağını xəbər verirlər.

*(İtaliya heyəti radio xəbərləri)*

**Cəmiyyəti-Əqvam Şurasına**

Xariciyyə İşləri naziri Politis Cəmiyyəti-Əqvam Şurasına yunan hökuməti tərəfindən nümayəndə təyin edilmişdir.

**İran şahı Londonda**

Romadan verilən xəbərlərə görə, İran şahı Londona, Viktoriya vağzalına varid olmuşdur [çatmışdır]. Şah kral, şahzadə və nazirlər tərəfindən istiqbal edilib [qarşılanıb] qəbul edilmişdir.

**QƏZETƏLƏRDƏN**

**Elba ilə Tuna arasında kanal**

"İstanbul" qəzetəsinin yazdığına görə, bir çex-slovak gəmi kompaniyası Elba ilə Tuna nəhri arasında 555 mürəbbe metrə [kvadrat metr] məsafə ərzində bir kanal qazmaq xəyalındadır. Söyləyirlər ki, bu iş üçün hazırlıqlar yapılmışdır. Kanalın qurtaracağı yer Presburq olacaqdır və orada son texnika üsulu üzrə bir iskələ [liman] inşa ediləcəkdir. Kompaniyanın Romaniya və Hamburqda agentəliyi olacaqdır.

**Fransada Parlaman intixabatı**

Fransada Parlaman intixabatı [seçkiləri] 16 təşrini-sanidə [noyabrda] başlanacaqdır. Yeni Məclisi-Məbusan 8 kanuni-əvvəldə [dekabrda] toplanacaqdır.

**Fransada gəmi inşaatı**

Yeni hərbi gəmilər inşa etmək proqramına müvafiq bu yaxın zamanda Fransada 6 yüngül krauzer [kreyser] və 6 müxrib [destroyer] inşa etmək ehtimalı vardır.

**Nyu-York tərsanələrində tətil**

Nyu-York tərsanələrində tətil edən əmələlərin miqdarı 60 minə baliğdir [çatır].

**İran və Müttəfiqlər**

Şahın məiyyətində olan İran Xariciyyə naziri Fransa Məclisi-Məbusanı nümayəndələrinə bəyan etmişdir ki, Puankareni rəsmi olaraq şah həzrətləri təşrini-əvvəlin [oktyabrın] axırında ziyarət edəcək və sonra İngiltərəyə əzimət buyuracaqdır [yola düşəcək]. Nazirin sözlərinə görə, o və İran hökuməti daima Müttəfiqlərin tərəfdarı olmuşlardır. Nazir kəndisinin Sülh Konfransına buraxılması üçün istida [xahiş] etmək xəyalındadır ki, orada İranın arzularını bəyan etsin. Nazir Fransa hökumətinə müraciət edərək rica etmişdir ki, İrana professor və müəllimlər göndərilsin.

**Fransada kömür istehsalatı**

Qəzetələrin əxbaratına [xəbərlərinə] görə, Pa-de-Kale kömür hövzəsində istehsalat işlərinə 1920-ci sənə həziranında [iyununda] başlamaq mümkün olacaqdır.

**"Əlinizi çəkiniz"**

Mançesterdə "Rusiyadan əlinizi çəkiniz" namı ilə bir cəmiyyət təşkil edilmişdir. Cəmiyyətin divani-rəyasətinə Persel (Parlaman Komitəsi Trade Yunion [Həmkarlar İttifaqları] üzvlərindən biri), Meremi (Dəmiryol İttifaqı rəisi), [Ayzek] Brassinqton, [Vilyam] Kouts (Britaniya sosialist firqəsinin lideri), [Corc] Pit (Matros Sənətkarları İttifaqının katibi) [daxil olmuşlar]. Fövqdə məzbur [yuxarıda adı çəkilən] cəmiyyət bütün fəhlə firqələrinə və sosialist cəmiyyətlərinə göndərmiş olduğu bəyannamələrində aşağıdakı maddələrin tələb edilməsini təkidən təklif edirlər:

1) Britaniya qoşunlarının Rusiyadan çəkilməsi;

2) Kolçak və Denikinə edilən müavinətin kəsilməsi;

3) Rusiya ablukasının [blokadasının] qaldırılması;

4) Rusiya ilə diplomasi əlaqəyə başlanılması.

**Sosialist sülhündən ötrü fond**

Buenos-Ayresdə "Sosialist sülhündən ötrü fond" adı ilə pul yığmışlardır. 1 milyon 338 min funt-sterlinq miqdarında toplanmış para bolşevizm ilə mübarizəyə sərf ediləcəkmiş.

**İngiltərədə**

İngiltərə ticarət idarəsi rəsmi surətdə təbliğ etmişdir ki, minbəd [bundan sonra] İngiltərə hüdudundan xüsusi icazə olmadan benzin ixrac edilməsin.

**Qahirədə iğtişaş**

3 təşrini-əvvəldə [oktyabrda] dövləti dəmiryol əmələləri tətil etmişlərdir. Baş direktor Smit tətil olan yerə gəldikdə əmələlər təhdid etməyə başlamış, polis dəvət etmək məcburiyyəti hiss edilmişdir.

**Fransada**

Fransa hökuməti Amerikadan 60 min rəs [baş] heyvan almışdır. Bu heyvanlar

müharibə zamanı talan edilmiş yerləri təchiz etmək üçündür.

**Prussiya ictimasının axırıncı iclası**

18 həziranda [iyunda] alman könüllüləri və tələbələr almanlar tərəfindən müharibə zamanı zəbt edilmiş Fransa sancaqlarını cəbbəxanadan çıxararaq İkinci Fridrix abidəsi qarşısında yandırmışdılar. Prussiya ictiması [yığıncağı] axırıncı iclasını işbu hadisəyə həsr etmişdir. İctimada Hoffman nitqə başlayaraq söyləmişdir ki, Almaniyanın ərzağa ehtiyacı varsa, Müttəfiqlərin müavinəti ona lazımdır. Binaənileyh [ona görə], vüqu bulan şu hadisəni çocuqcasına bir hərəkət kimi tələqqi etməyərək, dövləti xəyanətədd [hesab] etməlidir. Ondan sonra sözə başlamış Oskar Konun nitqi dəfələrcə sağlar tərəfindən münqəte edilmişdir [kəsilmişdir]. İclas nəhayət gurultulu keçmişdir.

**Romaniya və Bessarabiya**

"İntransjan" qəzetəsinin əxbaratına [xəbərlərinə] nəzərən, Romaniya hökuməti kəndi məmləkətinə Bessarabiyanı mülhəq edərək [qoşaraq], sonra vüqu bulmuş bir əmri-vaqe [olmuş-bitmiş bir iş, bir fakt] kimi Məclisi-Aliyə məlumat vermək niyyətindədir. Romaniyanın bu yeni iqdamı [addımı] onların Macarıstanda olan hərəkətlərindən də ziyadə iztirabı mövcib [iztiraba səbəb] olmuşdur. Məclisi-Ali böylə qəsbkaranə hərəkəti təsvib [qəbul, təsdiq] etməyəcəkdir. Hərgah romanlar [rumınlar] bütün Rusiya xalqı ilə müharibə etməli olarlarsa, Müttəfiqlərin onlara heç bir dürlü müzahirəti [köməkliyi] də olmayacaqdır və dolayısıyla, romanlar Bessarabiyanı əllərində saxlamağa müqtədir deyillərdir.

**Eştendə olan Almaniya qalasının tərksilah edilməsi**

Bazel qarşısında olan Eştendəki alman qalasının tərksilah edilməsinə başlanılmışdır. Tərksilah Müttəfiq zabitanı nəzarəti altında icra edilir. Şu qala Almaniya və İsveçrə Reyn səvahili [sahilləri] arasında əxzi-mövqe edib, Revel üçün daima bir təhlükə ica edirmiş.

**Almaniya-Litva etilafı**

Almaniya ilə Litva hökuməti arasında etilaf [razılaşma] hüsula gəlmişdir. Etilafnamə 3 maddədən ibarətdir:

1) Bitərəf məntəqə müəyyən edilir;

2) Radzivilişki mövqifi müvəqqət olaraq təxliyə edilincəyə qədər almanlar əlində qalır;

3) Rossində müttəfiq bir komisyon təşkil edilir ki, Alman və Litva əsakiri [əsgərləri] arasında baş verə bilən münaqişatı bərtərəf etsin [münaqişələri aradan qaldırsın].

**SÜLH ƏTRAFINDA**

İstanbulda müntəşir [nəşr olunan] "İləri" qəzetəsində Parisdən gələn xəbərlərə nəzərən Konfransın bir qaç gündür ictima etmədiyi [yığışmadığı] və ancaq bu gün toplana biləcəyini bildirməkdədir. Parisdən Romaya gedən İtaliya heyətimürəxxəsə [nümayəndə heyəti] rəisi Tittoni hənuz Parisə övdət etməmişdir [qayıtmamışdır]. Konfransın Bolqar sülhünün imzasından sonra tətili-müzakirat





edəcəyi [müzakirələrə fasilə verəcəyi] yenidən xəbər verilməkdədir.

Rəisi-cümhur Vilsonun əhvali-sihhiyyəsinin vəxamətindən bahis [sağlamlığının təhlükəli vəziyyətdə olduğunu xəbər verən] raporlar Avropanın hər tərəfində böyük bir təsir icra etmişdir. Fransa, müahideyi-sülhiyyənin cəhəti-tətbiqiyyəsinin, ittihadi-əqvam projesini kamalifəaliyyətlə idarə edən bir amilin mütəbayin məsələlərin təvəllüd edə biləcəyinə ehtimal verməkdədir. [Fransa, sülh müqaviləsinin əməli cəhətinin, millətlərin birliyi layihəsini böyük bir çalışqanlıqla idarə edən bir amilin, bir-birinə zidd məsələlər meydana çıxacağına ehtimal verməkdədir.] Cəmiyyəti-Əqvamın ilk müşəvviqi [təşviqatçısı] olan rəisi-cümhura vəkalət edəcək və Cəmiyyəti-Əqvam layihəsini mövqeyi-tətbiqə qoymaq xüsusunda onun qədər etimad ed[il]ən bir sima təsəvvür edilməməkdədir.

Halbuki rəisi-cümhurun təsəvvürü əsasına ibtinayi-tənzim edilən müahideyi-sülhiyyənin şəkli-hazırı ilə mövqeyitətbiqə vəzi Cəmiyyəti-Əqvama vabəstə bulunmaqdadır. [Halbuki prezidentin fikirlərinə əsaslanaraq hazırlanan silh sazişinin indiki formada həyata keçirilməsi, Millətlər Cəmiyyətinə bağlıdır.]

Avropalılar bu sırada rəisi-cümhurun əhvali-sihhiyyəsini bütün millətlər üçün böyük bir əhəmiyyəti haiz [daşıyan] bir məsələ tələqqi etməkdədirlər [saymaqdadırlar].

**Cəmiyyəti-Əqvam toplanacaqmı, toplanmayacaqmı?**

Klemanso təşrini-sanidə [noyabrda] Vaşinqtonda toplanılmasını istəyir. Fəqət Hauz Amerika əyanının [senatorlarının] qərarını istehsal etmədən bu babda bir şey yapılammayacağını, ancaq başqa bir yerdə məsələn, Londrada toplana biləcəyini söyləyir. Amerika bu ictimaya [yığıncağa] iştirak edə biləcəkmi? Cəmiyyəti-Əqvam "Dördlərin" yerinə qaim olacaq Konfrans bolqar və macar sülh müahidatının [sazişlərinin] imzasından sonra tətili-müzakirat edəcək.

Klemanso xülasəsini atiyə [aşağıya] yazdığımız bir məktubu miralay [polkovnik] Hauza göndərmişdir:

*"Cəmiyyəti-Əqvama mütəalliq müqərrəratın ittixazı zimnində bəzi mülahizatı şimdidən sizə bildirməyi faydadan xali ədd etməyirəm. [Millətlər Cəmiyyətinə aid qərarların qəbul edilməsi barəsində bəzi fikirləri indidən sizə bildirməyi faydalı hesab edirəm.]*

*Mənə öylə gəlir ki, Vaşinqtonda rəisinizin rəyasəti [prezidentinizin başçılığı] altında Cəmiyyəti-Əqvamın ilk ictiması müstəcilən əqd edilməsi [ilk yığıncağı təcili surətdə baş tutması] lazım gəlir. Cəmiyyətin tövlid etdiyi [yaratdığı] ümidlərlə bu gün bütün millətlərin əlaqədar olduğu məsaili-beynəlmiləliyyənin [beynəlmiləl problemlərin] həlli buna ən birinci səbəbdir.*

*Bu ictimanın təşrini-sani zərfində əqdini [noyabr ayı ərzində baş tutmasını] düşünürəm. Bu ictimaya mümkün olduğu qədər isimləri Cəmiyyəti-Əqvamın təşkili ilə əlaqədar pək çox zəvatisiyasiyyənin [siyasi şəxslərin] dəvət edilməsi fikrindəyəm.*

*Yalnız kağız üstündə mövcud olan bir cəmiyyəti hərəkətə gətirmək üçün heç olmazsa, böylə əsaslı bir məsələnin müzakirəsi təmin edilmiş olar. Gərək sülh*

*şəraiti icabatı, gərək müahidə ilə həll edilməyən məsələlər üçün bütün millətlər Cəmiyyəti-Əqvam məclisinin ictimaya dəvət edilər-edilməz hərəkətə gəlməsini bəkləyirlər.*

*Siz də mənim kimi qanınız ki, bu dəvət vaqe olacaqdır. Fəqət, yenə mənim kimi qanınız ki, nətayici-lazimə [lazım gələn nəticələr] haqqında hökm və şərait təmin edəcək millətləri də ehzar [hazır] etmək lazımdır. Ərzi-çöhrə edən [üz verən] min müşkülat içində Cəmiyyəti-Əqvam bütün dünyanı əlaqədar edən müxtəlif məsailin [problemlərin] həllində haizi-rüchan [üstünlüyə malik] bir mövqe sahibi olmalıdır.*

*Cəmiyyət əzalarının təqib ediləcək xətt və hərəkəti haqqında nüqati-nəzər təati edə bilmələrində böyük istifadələrin məlhuz olduğunu zənn etməyirmisiniz? [Cəmiyyət üzvlərinin, izlənəcək yol və hərəkət haqqında öz nöqteyi-nəzərlərini mübadilə etmələrində böyük faydalar olduğunu düşünmürsünüzmü?]*

*Hərb zamanında doğan mütarikəti-beynəlmiləlin [beynəlmiləl atəşkəsin] təmini-inkişafı və sülh zamanındakı təsiratını mühafizə üçün Cəmiyyəti-Əqvamın ilk cələsəsində [iclasında] mister Vilsondan ziyadə millətlərə ixtarati-lazimədə bulunacaq [lazım gələn səviyyədə xəbərdarlıq edəcək] kimsə yoxdur."*

**Romaniya və Müttəfiqlər**

Məclisi-Ali qərara almışdır ki, dörd müttəfiq dövlətlərin siyasi nümayəndələri mərifəti [vasitəsi] ilə Müttəfiqlərlə Romaniya arasında olan münaqişəli məsələlərə aid bir müştərək nota Romaniya hökumətinə təqdim etsin. Və həmçinin qərara alınmışdır ki, romanların [rumınların] Peştədə etdikləri həczləri təhqiqat yapmaq və siyahısını tutmaq üçün oraya bir komisyon göndərilsin.

**Norveç və Beşlər Şurası**

Beşlər Şurasında Şlinsberqef Komisyonunun layihəsi istema edilərək [dinlənilərək] qəbul edilmişdir. Cəzairi-müttəhidə [arxipelaq] Norveçə verilir. Ancaq kömür istehsalatı imtiyazı və qeyri şu dürlü imtiyazatın əcnəbilərə verilməsi qeyd altına alınmışdır.

**Portuqaliya**

Məclisi-Ali Kionqanı Portuqaliyaya vermişdir. Kionqa Şərqi Afrikada sabiq Almaniya müstəmləkələrindən 400 mürəbbe mil qədər yer tutmuş bir nahiyədir.

*Felyeton*

## TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT "MÜSAVAT" FİRQƏSİNİN İKİNCİ QURULTAYI PROQRAMI

***2-3 dekabr 1919***

**I. Qurultayın surəti-təşəkkülü**

1. Qurultaya 100 əzaya [üzvə] malik olan şöbə bir mürəxxəs [nümayəndə] göndərir.

2. 100-dən artıq əzaya malik olan şöbələr hər 100 əzaya bir mürəxxəs göndərirlər. 50-dən artıq qalan baqilər [artıqlar] 100 ədədi-tam kimi hesab edilir.





3. 100-dən az əzaya malik olan şöbələr hər halda bir mürəxxəs göndərmək haqqına malikdirlər.

4. Mərkəz Komitəsi əzası ilə Məclisi-Məbusan firqə fraksiyon əzası bütün heyətləri ilə qurultay sayılırlar.

5. Firqəyə mənsub tələbə təşkilatı müstəqillən qurultaya bir mürəxxəs göndərir.

6. Firqəyə mənsub qəzetələr birər mürəxxəs göndərmək haqqına malikdirlər.

7. Şöbələrdən gələn mürəxxəslərin yol məsrəfləri kəndilərini göndərən şöbə və təşkilatın öhdəsinədir.

8. Bakıda bulunduqları müddətcə mürəxxəslərə Mərkəz Komitəsinin məsarif və təşəbbüsü ilə mənzil, sabah və axşam çayı ilə nahar yeməyi verilir.

Qeyd: Kəndi təşəbbüsləri ilə mənzil və yemək bulacaq yoldaşlardan, kəndilərinə bizzat [şəxsən] mənzil və yemək bulmaq surəti ilə Mərkəz Komitəsinin vəzifəsini asanlaşdırmaları xüsusi surətdə rica olunur.

9. Göndəriləcək mürəxxəslərin seçildiklərini hər şöbə noyabrın 15-dən gec olmamaq üzrə Mərkəz Komitəsi katibliyinə yazı ilə xəbər verməlidir.

10. Mürəxxəslər məhəl şöbələrinə [yerlərdəki şöbələrə] məxsus ümumi iclaslarda firqə nizamnaməsinin göstərdiyi vəchlə intixab olunmalı [seçilməli] və əllərinə bu intixab məclisinin məzbətəsinə binaən [protokoluna əsasən] məhəl şöbəsinin möhürü və şöbə rəisinin imzası ilə təsdiqlənmiş etimadnamələr verilməlidir.

11. Mürəxxəslər qurultaya iştirak etmədən əvvəl etimad[namə]lərini Mərkəz [Komitəsi] katibliyinə təqdim ilə müqərrər olan düxuliyyə vərəqəsini əxz etməlidirlər [nəzərdə tutulan giriş vərəqəsini əldə etməlidirlər].

12. Qurultay 1919 sənəsi dekabr ayının 2-dən 6-na qədər davam edəcək.

13. Firqə qurultayında vilayət şöbələri və yaxud ayrı-ayrı firqə əzası tərəfindən müzakirə üçün veriləcək müəyyən məsələlərə aid məruzələr laəqəl [ən azı] qurultayın açılmasından 5 gün əvvəl Mərkəz Komitəsi katibliyinə yetişdirilməlidir.

**II. Qurultayın ruznameyi-müzakiratı [gündəliyi]**

1. Qurultayın mərasimi-iftitahı [açılış mərasimi].

   1) Mərkəz Komitəsi rəisinin müxtəsər niqti-iftitahisi [açılış nitqi];
   2) Qonaqların və müxtəlif müəssisələrin təbrikatı;
   3) Təbrik teleqrafların elamı [elan edilməsi];
   4) Etimadnamələrin təsdiqi və:
   5) Divani-rəyasət (rəis, 2 müavin və 2 katib) intixabı.
   Qeyd: Divani-rəyasət seçilincəyə qədər Mərkəz Komitəsi rəisi – rəyasət və katibi də – kitabət [katiblik] vəzifəsini ifa edərlər.

2. Mərkəz Komitəsi ilə fraksiyonun məruzəsi.

Məruzəçi: Rəsulzadə Məhəmməd Əmin.

Məruzə aşağıdakı mətalibi təfsil edəcəkdir [mətləbləri ələ alacaqdır]:

   1) Zaqafqaziya Seymi və firqənin Zaqafqaziya Seymindəki rolu;
   2) Azərbaycanın elani-istiqlalı və türkləri dəvət;

3) Gəncədən Bakıya; firqə təşkilatınca bir dövri-inhitat [geriləmə, tənəzzül dövrü];

4) Parlaman dövrünün açılması və bu dövrdəki firqə fəaliyyəti, müxtəlif firqələrlə mübarizə;

5) Əksəriyyəti-mütləqəyə [mütləq çoxluğa] malik olmadığı halda, bir dövlət firqəsi olduğundan, Parlaman işində gördüyü müşkülat; firqənin faciəsi.

3. Firqə məramnaməsinin yenidən təhriri.

Məruzəçi: Rəsulzadə Məhəmməd Əmin.

Məruzədə bilxassə aşağıdakı məvadd [maddələr] üzərində bəhs olunacaq:

1) Nəzəriyyat və uzaq məqsəd;

2) Şəkli-idarə;

3) Mükəlləfiyyəti-əsgəriyyə;

4) Dini məsələlər;

5) Torpaq məsələsi.

Qeyd: Torpaq məsələsində müstəqil məruzə və məruzəçi olmaq ehtimalı vardır.

4. Əhvali-hazirə və siyasəti-ümumiyyə haqqında.

Məruzəçi: Yusifbəyli Nəsib bəy.

Məruzə məmləkətin vəziyyəti-siyasiyyeyi-ümumiyyəsini [ümumi siyasi vəziyyətini] izah etmək üzrə aşağıdakı məsələləri ehtiva edəcək:

1) Siyasəti-xariciyyədə:

a) Düvəli-müəzzəmə ilə münasibat [Böyük dövlətlərlə münasibətlər];

b) Rusiya ilə münasibat;

c) Gürcüstan ittifaqı;

ç) Ermənistan ilə münasibat;

d) Naxçıvan məsələsi;

e) Dağıstan məsələsi;

ə) Qərbi Zaqafqaziya müsəlmanlarının müqəddəratı;

f)Türkiyə ilə münasibat.

2) Daxili siyasətdə:

a) Ümurati-əsgəriyyə [hərbi işlər] və müdafieyi-vətən;

b) Bələdiyyə və məhəlliyələr [yerli təşkilatlar] təşkili;

c) Təqsimat [bölgü] idarəsi;

ç) Rüşvət və sui-müamilə [vəzifədən sui-istifadə] ilə mübarizə;

d) Məmurlar və firqəçilik;

e) Mahalın islahı;

ə) Maliyyə, ticarət və ərzaq işləri;

f) Maarif siyasəti;

g) Milliləşdirilmək məsələsi.

5. Təşkilat məsələsi.

Məruzəçi: Həsən bəy Ağayev.

Məruzə aşağıdakı maddələr haqqında nəzəriyyə və tədbirlər təklif edəcək:

1) Mərkəz Komitəsinin surəti-təşkili və səlahiyyəti;

2) Mərkəz Komitəsi ilə fraksiyonun münasibatı;

3) Şöbələrin təşəbbüs və fəaliyyətləri üçün vəsilələr [vasitələr];

4) Şöbə konqreləri və mərkəzlə münasibətləri;

5) Şöbə kassalarının təsis[i] və Mərkəz kasasına vergiləri;

6) Məhəlli mübəlliğlər [yerli təbliğatçılar], ümumi mürəxxəslər;

7) Firqə mətbuat və nəşriyyatı; firqə mətbəəsi;

8) Firqə İstixbarat Qələmi [Məlumat Bürosu].

6. Mərkəz Komitəsinin intixabı.

7. Vilayətdən gələnlərin məruzatı [ərizələri; müraciətləri].





Bu məruzat, hər böyük məhəl şöbəsinin fəaliyyəti haqqındakı məlumatla, yerli övzadan [vəziyyətdən] bəhs etməlidir.

8. Qurultayda çıxacaq məsələlər.

Mühüm məruzələrin ehtiva eylədiyi başlıca mövzular ayrıca təb [çap] olunub qurultay əzasına tövzi olunacaqdır [paylanacaqdır].

## İRAN İŞLƏRİ

“İran” qəzetəsinin yazdığına görə, neçə vaxt əqdəm [qabaq] İran torpağına keçib də Şahsevən tayfalarını İran hökuməti əleyhinə üsyana qaldırmış olan məşhur quldur Hacı Baba xan Ərdəbilini tövqif etməkdən [tutmaqdan] ötrü İran Xariciyyə nazirindən Bakı konsuluna lazımi təlimat göndərilmiş və əmr edilmişdir ki, məzkur [deyilən] quldurу dərdəst etməkdə [ələ keçirməkdə] Azərbaycan hökumətindən dəxi lazımi dərəcə müavinət istənilsin. Konsul[un] bu barədə Azərbaycan hökuməti ilə müzakirata başlaması haqqında Tehranda məlumat alınmışdır.

### Məclisi-Məbusan intixabatı ətrafında

Təbrizdən “İran” qəzetəsinə yazıldığına görə, İran Məclisi-Məbusanına Təbrizdən intixab edilmiş [seçilmiş] olan məbuslar cümləsində məşhur demokrat şahzadə Məhəmmədvəli Mirzə dəxi vardır. “İran” qəzetəsi müşarünileyhin [deyilən şəxsin] intixab edilməsindən narazı olduğunu izharla [bildirməklə], onun məbusluq kimi böyük bir vəzifəyə layiq olmadığını bəyan edir.

### Qoşunun vürudu

“İran” qəzetəsinin məlumatına görə, neçə gün əqdəm Tehrandan Yeni İmama 600 nəfərə yaxın piyada və süvari kazaklardan ibarət bir dəstə qoşun varid olub [gəlib], bir gün qaldıqdan sonra Qəzvinə tərəf hərəkət etmişdir. Qoşunun dörd dənə də topları vardır.

### Yeni Hərbiyyə naziri müavini

Yenə həman qəzetənin yazdığına görə, bu günlərdə xəstəliyindən dolayı istefaya çıxmış olan İran Hərbiyyə naziri (Vəziri-cəng) müavini Sərdari-hümayunun yerinə, şahzadə Salari-ləşkər təyin edilmişdir. Mümaileyhin [haqqında danışılan şəxsin] təyini İran siyasi və hərbi dairələrində böyük məmnuniyyətə səbəb olmuşdur.

### Hökumət qoşunlarının müvəffəqiyyəti

Şəfaruddan alınan məlumata nəzərən, hökumət qoşunları talış dəstəsinin köməyi ilə cəngəllilərə hücum edərək, bir qədər müharibədən sonra Masuləni işğal və düşmən dəstələrini dağlara tərəf pərakəndə etmişlərdir. Cəngəllilər dağlarda gizlənmişlərdir. Onları təqib etməkdən ötrü Əmir Müqtədir tərəfindən 50 nəfərdən ibarət bir dəstə, hökumət qoşunlarına kömək göndərilmişdir. Hökumət qoşunlarına hər gün qüvveyi-imdadiyyə [kömək qüvvəsi] yetişməkdədir.

### Türküstan sərhədində

Lütfabaddan “İran” qəzetəsinə yazıldığına görə, Türküstan bolşevikləri Mavərayi-Bəhri-Xəzərdə [Zakaspiyskdə]

Rusiyadan, İrandan və başqa yerlərdən əhali gəlməsinə mümaniət [maneçilik] göstərirlər. Dəmiryol xətti yaxınlığında sükunət edən [yaşayan] yerli əhalini bolşeviklər neçə verst uzağa köçməyə məcbur edirlər. Şayiata görə, bu yaxın vaxtlarda Mavərayi-Bəhri-Xəzərdə böyük müharibələr vüqu bulacağına ehtimal vardır.

**Casusların tövqifi**

Kuçan ətrafında ingilislər tərəfindən beş nəfər casus dərdəst edilmişdir [ələ keçirilmişdir] ki, onlardan üç nəfəri İran əhli – Təbrizli Mustafa, Həsən bəy və Hüseyn, iki nəfəri də avstriyalı – Dorton və Kurya adlı şəxslərdir. Onlar bu günlərdə Kuçandan Məşhədə göndəriləcəkdirlər.

**İran konsulu kargüzarının həbs edilməsi**

Neçə vaxt əqdəm Türküstan bolşevikləri tərəfindən Daşkənddəki İran konsulu kargüzarı Rüknülvüzəra tövqif [saxlanılmış] və həbs edilmişdi. Bu günlərdə Daşkənddən Aşqabada teleqrafla bildirildiyinə görə, məzkur [deyilən] şəxs həbsdən azad edilib və bu günlərdə Aşqabada göndəriləcəkdir. Aşqabaddakı İran konsulu bu barədə Məşhəd valisinə məlumat təqdim etmişdir.

## DAĞISTANDA

**Qroznı altında vuruşmalar**

Qroznı dairəsi çeçen torpağında təşrini-əvvəlin 20-də dörd gün qızğın vuruşmalar olmuşdur. Vuruşmaya Qroznı yaxınlığına hərəkət eyləmiş olan çeçen cəbhəsini sıxışdırmaq məqsədilə Könüllü ordu tərəfindən başlanılmışdır.

Dörd gün imtidad edən [sürən] vuruşma nəticəsində Könüllü ordu işğal etdikləri yerləri buraxaraq Qroznı səmti dəmiryol xəttinə gedər və çeçenlər də Qroznının 4-5 fərsəxliyində olan mədənləri işğal edərlər.

Vuruşma əsnasında Könüllü ordunun üç kazak bölüyü iki polkovnik ilə büsbütün məhv edilərək, bir çox əsir alınmışdır. Əsir düşənlərin çoxu gimnaziya və realnı məktəbləri şagirdləri və tələbələrdən ibarətdir. Bunların dediyinə görə, vuruşma zamanı bunları əvvəlinci cərgədə və bunların dalınca kazaklar qoyulur ki, əvvəlinci cərgədəkiləri mitralyozla vuruşmaya qovsunlar. Bunların qiyamçılarla bir yerdə vuruşmada iştirak etmək arzularında olduqlarına baxmayaraq, müəssisələrdə işləməyə göndərirlər. Səfərbərliyə alınanlardan bir çoxu qiyamçılar tərəfinə keçməkdədirlər.

Mənabeyi-mövsuqədən [etibarlı mənbələrdən] Şimali Qafqaziya haqqında məlumati-atiyyəni istehsal etdik [aşağıdakı məlumatı əldə etdik]:

Bir həftə bundan əqdəm [qabaq] üsyançılar Qroznı şəhərinin vağzalını belə işğala müvəffəq olmuşdular. Sonra dabravolların bir dəstəsi üsyançıların arxasını təhdid etdiyindən naşi [ötrü], Dağıstan qitəatı [hərbi hissələri] geri çəkilib müharibəyə girişməyə məcbur oldular.

Düşmənin qüvvəti dağıldıqdan sonra üsyançılar yenidən hücum edərək Qroznı yaxınlığındakı böyük əhəmiyyəti haiz olan [daşıyan] Çeçen-Aul və Berdıkel aullarını işğal [etmək]lə, Qroznı mədənlərinin də bir hissəsini ələ keçirmişlərdir.





İşbu müharibələrdə general Kolesnikov komandası altında müharibə edən dabravol dəstələri məhv edilib, 300 nəfər də üsyançıların tərəfinə keçmişdir. Bunlar Apşeron alayına mənsubdurlar. Bir çox mühimmati-hərbiyyə qənimət alınmışdır.

Bütün cəbhədə üsyançıların əhvalı müstəhkəm bir hal kəsb etmişdir [möhkəmlənmişdir].

## YENİ BƏLƏDİYYƏLƏRİN MƏDƏNİLƏŞMƏSİ VƏ MİLLİLƏŞMƏSİNƏ DAİR

Bir yevropalı səyyah Qafqaz qitəsini gəzib-dolaşarkən öylə zənn və etiqad bəsləyə bilər ki, burası ruslara, ermənilərə, gürcülərə mənsub birər xristian ölkələridir. Əksəriyyəti qazanmış olan türklərin hələ mədəni işləri kənarda qalsın, böyük şəhər və qəsəbələrdə yaşamasına aid zahiri əlamətlərinə təsadüf ediləmməz. Abad və izdihamlı caddələrin ali imarətlərində xristianlar yaşarlar. Müsəlmanlar isə şəhərlərin "dabbağxana", "şeytanbazar" kimi çirkab və mütəəffin [üfunətli] məhəllələrinə sığınmışlar. Bu məhəllələrin dar küçələri zibil ilə dolu olur. Gəbərmiş pişik və it kimi heyvanların cəsədləri ancaq buralarda görünər. Buraları işıqlandırmaq, süpürmək, sulamaq kimi mədəni şeylərdən heç bir əlamət görünməyir. Küçələrin darlığı cəhəti ilə də, təbii ki, buralardan tramvay keçməz. Bəzən faytonlar da bu məhəllələrin ziyarətinə getməzlər. Ali müəssisələrdən burada bir əlamət yox. Bunun əvəzinə həbsxana, duxan [meyxana] və sairə kimi əxlaqı pozan şeyləri şəhərlərin ancaq müsəlman hissələrində görmək olar.

Böylə rəzalətlərə türklər neyçin mürtəkib oldular [qurşandılar]? Bu rəzalətdən onlar, əcəba, xoşlanırlarmı, yoxsa bu tənəzzülə bir ayrı fəqərəmi [hadisəmi] bais olmuşdur? Bunun düzgün və doğru cavabını şəhər idarələri və bələdiyyələrin tarixində aramalıyız.

Qafqaz şəhərlərini idarə etmək üçün burada da bələdiyyə qanunları ittixaz [qəbul] edildi. Sabiq rus hökuməti-müstəbidəsinin, hər işdə olan kimi, bu məsələdə də qanunsuzluğu, ədalətsizliyi aşkar oldu. Böylə ki, sabiq bələdiyyə qanunlarına görə, şəhər vəkillərinin intixabında [seçkisində] haqq qazanmaq üçün mükəlləfiyyəti-mülkiyyə ilə bərabər, vəkilin xristian ünsüründən olması da mətlub [tələb edilən, arzu edilən] idi.

Əksəriyyəti müsəlmanlardan ibarət olan şəhərlərdə də "xala xatirin qalmasın" deyə bir-iki müsəlman vəkillərinin də intixabına izin verilirdi. Lakin ümum xristian vəkilləri arasında bu bir neçə müsəlman vəkilləri aciz qalaraq, heç bir məsələnin öhdəsindən gələ bilmirdilər. Odur ki, Qafqaz şəhərlərinin məmurluğu [abadlığı] qeydi, ümumən xristian və xüsusən Azərbaycan şəhərlərində ermənilər əlində qalmışdır. Təbii ki, xristian vəkilləri məhz xristian məhəllərinin abadlığına çalışıb, müsəlmanları unutmuşlar. Bunun nəticəsi olaraq müsəlmanların qələbəliyi müşahidə edilən şəhərlərdə bu gün öylə bir pozğunluq görünür ki, yevropalılar nəzərində Azərbaycan türkləri xəcil və ləkədar edilir. Halbuki şəhərlərimiz[in] böylə fəna bir

hala düşürülməsinə hökuməti-müstəbidənin tərəfgirliyi bais olmuşdur.

Vaxtilə türklər də xristianlarla müsaviyül-hüquq [bərabərhüquqlu] edilsəydi, Bakı, Gəncə, Şuşa, Şəki, İrəvan, Naxçıvan, Tiflis və sair şəhərlərin müsəlman məhəllələri də ən məmur və parlaq bir üsul ilə təsis edilib, bugünkü rəzalətli hallarından bir nişanə də qalmazdı.

Azərbaycan bələdiyyələrinin yeni qanunları təsdiq edilmiş və mövqeyi-icraya qoyulmuşdur. Bu yaxın vaxtda Bakının da intixabı başlar. Burada yaşayan millətlərin seçki haqları məhfuz edilmişdir [qorunmuşdur] ki, bu da şayani-təhsindir [alqışa layiqdir].

İstər müsəlman olsun, istər xristian, bələdiyyələrimizə daxil olacaq şəxslərdən ən əvvəl bunu tələb etməlidir ki, şəhərin xarabazar və qeyri-məmur caddələrini mərkəzdəki sair abad küçələrlə müsaviyül-hüquq etməli, mərkəzdə hər nə varsa məhrum qalmış küçələrdə də bunu qazandırmalıdır. Bu imtiyazlar, bu haqlar hankılarıdır, kənar küçələr bundan məhrum qalmışdır?

1) Mərkəzdən artıq kənar küçələr tramvay yoluna möhtac olduğu halda, bu gün tramvay ancaq ən izdihamlı küçələrdən keçirilmişdir. Bu ədalətsizliyin rəfi [aradan qaldırılması] üçün tramvayın bir qanadını da uzaq küçələrdən aparmaq icab edər [lazımdır]. Bunun üçün bəzi dar küçələri dağıdıb genəltmək lazım gələcəkdir.

Bundan qorxmamalı, zira bu fəqərə [iş; hadisə] gec, ya tez bir gün gərək əncampəzir edilsin. Böylə olarsa, fayton və arabaların burada yerişinə yol açılar.

2) Mərkəzdə hər dörd küçənin ayrıcında bir elektrik fənəri nəsb edilmişdir [qoyulmuşdur]. Bunu dağ məhəllələrində də, hətta sallaqxana və qəbiristanda da yapmalıdır. Məlumdur ki, hər bir cinayət qaranlıq yerlərdə baş verər. Binaənileyh [ona görə], tamam qaranlıq küçələri nurlandırmalıdır ki, cinayətə macal qalmasın.

3) Aşkardır ki, mərkəzdən uzaq yerlərdə sakin olanların cümləsi əhli-kəsəbə və füqəra qəbilindəndir. Burada su budkaları mümkün olan qədər gərək çoxalsın ki, camaat növbətə dayanıb vaxtlarını bihudə sərf etməsinlər. Mərkəzdə rəsmi budkalardan əlavə, hər böyük evin həyətində də bir krant tərtib edilmişdir. Dağ məhəllələrində xüsusi krant olmadığı cəhətə, yalnız su budkalarına möhtac qalmışlar. Bundan əlavə, bunların çoxu çarvadar və çodar əhlindən olduğu cəhətə, bir çox heyvanları vardır ki, suya möhtacdır. Böylə olan surətdə bu məhəllələrin su budkaları bir qat daha artırılmalıdır ki, əhalisi üsrət [çətinlik] çəkməsin.

4) Həmçinin bu məhəllələrin caddələri yağış sellərindən oyulub dağıdılmışlar. Bunları da daş və qənbər ilə döşədib nizama salmalı və böylə tufanların sədəmələrindən [zərbələrindən] birdəfəlik qurtarmaq üçün həman məhəllələrin yuxarı başından hasar və xəndəklər yapmalı ki, dağların axıntıları şəhərə hücum gətirməsin. Buranın nəzafəti [təmizliyi] üçün də xüsusi tədbirlər görməlidir. Hər həyət burada bir məzbələ [zibillik] halını almışdır. Lazımdır ki, zibil arabaları bu məhəllələri də dönüb dolaşsın. Hələ mərkəzdə biri-birinin qarnına girmiş əczaxanaların birini-ikisini bu uzaq cəhətlərə köçürmək olmazmı? Təbiblərin, mərizxanaların [xəstəxanaların] da bəzisi buralarda yerləşərlərsə, buranın hifzüssihhə [gigiyena] məsələləri qolaylaşar.

5) Mərkəzə dolmuş məktəblərin də bir qismini uzaq məhəllələrə əta etməlidir. Küçə pozğunluğu, yolların uzaqlığı bir çox füqəra uşaqlarını təlimdən məhrum buraxır. Nə məntiqlə dörd-beş edadiyyələri qısa bir caddəyə doldurmuşlar. Şəhərin cihati-ərbaasına [dörd tərəfinə] bunlardan birini-ikisini köçürmək mümkün olsa, gözəl olmazmı? Söz yoxdur ki, genə "Burada edadiyyələrə layiq geniş mənzillər yoxdur" deyə etirazlar edən olacaqdır. Burası doğru, lakin bu hal sabiq hökumətin mənhus hərəkətləri ilə qərarlaşmışdır. Sabiq vəkillərin sağ gözü mərkəzdə və sol gözü kənarda (yəni müsəlmanlarda) olsaydı, Balaxana küçəsində yapılmış Birinci gimnaziyanın o müəzzəm [əzəmətli] imarəti bu gün Təzəpirdən yuxarıkı məhəllələrin yerində vaqe olmuş olardı. Dağ məhəllələrində bir-iki ibtidaiyyələrimiz [ibtidai məktəblərimiz] vardır. Buna kifayət etmək olmaz. Orada ayrı məktəblərin də isbati-vücudu [olması, özünü göstərməsi] lazımdır. Həmçinin axşam kursları, qiraətxana kimi maarifin sair mənbələrinə də burada yer verməlidir ki, axşama qədər işləmiş və yorulmuş əhli-kəsəbə maarif dalınca mənzillərindən uzaq məhəllələrə yortmasınlar. Bu cəhətlərdə qiraətxana güşadı [açılması] beş vaxt namazdan fərzdir. Əhalinin mənəvi bir məşğuliyyəti olmayınca, çayxanalarda, qumarxanada qeyri-məşru işlərə mürtəkib olurlar [qanunsuz işlərə qurşanırlar]. Buralarda qiraətxana təsis edilərsə, bununla bərabər, hər qiraətxanada ümumun istifadəsi üçün bir telefon aparatı qoymaq mümkündür ki, yanğın və çapqın kimi təhlükəli işlərdə müəyyən müəssisələrdən imdad tələb edilsin.

6) Poçta-teleqraf kontorunun bir şöbəsi də ən uzaq bir məhəllədə açılmalıdır ki, buranın sakinləri mədəniyyətin səmərələri ilə faydamənd ola bilsinlər.

7) Təbiblər, müəllimlər və sair məmurların burada imrari-məişətini [dolanışığını] təmin etmək üçün bu küçələrin də milis nəfəratını təzyid etmək [artırmaq] lazım gəlir. Yoxsa bu "təhlükəli" küçələrdə yaşamağa heç kəs razı ola bilməz.

İştə, uzaq məhəllələrin müruri-zamanla [vaxt ötdükcə] mədəniləşməyi üçün bir bu qədər islahat yapmalıdır...

Bunlarla bərabər, bir çox indiyədək özgələr əlində qalmış müəssisələrin bələdiyyə ixtiyarına keçməsi üçün çalışmalıdır. Sərvətdarların tamahkarlığı sayəsində elektrik və telefon idarələrində gündə bir kərə tətili-ümumi elan edilir. İldə üç ay telefon müxabiratından [rabitəsindən] istifadə etmək mümkün olmayır, amma icarə haqqı hər üç-dörd ayda bir dəfə artırılır. Qəflətən tətil yapıb bayram axşamında müsəlmanları qaranlıqlara, zülmətlərə atırlar. Axırda bu müəssisələrin hamısı gərək şəhər əlində olsun. Həmçinin bələdiyyəmiz olduğu halda, Mərkəzi Ev Komitəsinin də bəzi işlərə müdaxilə etməyə nə haqqı var? Bu da şəhər işlərindən qəsb etmiş idarələrdən biridir.

Bundan sonra elektrik, tramvay, su kanalları, nəcis lağımları, fəhlə qəsəbə-

ləri (рабочіе поселки), darülfünun təmiratı [universitet binaları] (Университетская колонія) və bunlar kimi bir çox mühüm məsələlərin həlli meydanda növbət bəkləyir. Bu gün bahalıqdır deyə əllərimizi qoltuğumuza qoyarsaq, bir neçə ildən sonra şəhərin sair məmurluğu da pozulub gedər. Bunun önünü almaq üçün bələdiyyəmiz gərək əlindən gələni müzayiqə etməsin [əsirgəməsin].

Bakı bələdiyyəsinin builki məsarifi həştad mini keçmişdir. Bir bu qədər məsarifin müqabilində abadanlıq əvəzinə şəhərimizi də xarabaya döndərəcəklərsə, böylə bələdiyyənin lüzumuna nə ehtiyac vardır?

Yeni bələdiyyədən axırkı təmənnamız, ixtiyarında bulunan idarələrin milliləşməsidir. Bələdiyyə üzvlərindən başlamış son xırda məmurlarına qədər hamısı türkcəni bilməlidirlər ki, əhalinin ənvai [cürbəcür] şikayət və müraciətlərini bilsinlər. Türkcə yazılmış ərizələri sahiblərinin üzlərinə çırpmasınlar ki, "rusca yazdır". "Türkcə bilməyirəm" deyə şikayətçinin üzünə hürüt-hürüt bax[ma]sınlar. Küçələrin o qaba və namövzun [eybəcər] adlarını türkləşdirsinlər. Konkaların lövhələrin türkcə yazdırsınlar ki, sərnişinlərin mənzili-məqsuduna erişməyi asan və xatasız olsun. Ticarət lövhələrinin düzgün türkcəsinə diqqət yetirsin[lər].

İştə, yeni bələdiyyədən gözlədiyimiz şeylər bir bu qədər!..

Varmı müsəlmandan və xristiandan öylə mahir və fəal şəxslərimiz ki, bu proqramın öhdəsindən gələ bilsinlər?

*Fərhad Ağazadə*

**PARLAMAN ƏTRAFINDA**

"Əhrar" fraksiyasının sabiq lideri zeyldəki [aşağıdakı] məktubun dərcini bizdən rica etmişdir:

Mən nə üçün həyatına bir dərəcəyə qədər səbəb olduğum "Əhrar" fraksiyasından çıxdım?

20-25 sənədən bəri mən iştirak etdiyim və bir çox zaman kəndi təşəbbüsümlə vücuda gətirdiyim milli təşkilatlarda həmişə millətçi və vətənpərvər bir inqilabçı (yəni türk sosialist-revolyusioneri) olmuşam. "Əhrar"ı da həmin əqidə ilə təşkil edib, onun proqramına mümkün olduğu qədər inqilabçı rəngi vermişəm və əqidəmi də arxadaşlarımdan əsla danmamışam. Aşkardır ki, mən, əsasən [kökündən] möhkəm bir millətçi olduğum üçün beynəlmiləl sosialistlər cərəyanına qapılammazdım. Burasını əvvəldən bəri mən ilə arxadaşlıq edən zəvati-kiram [möhtərəm şəxslər] səmimiyyətlə etiraf edərlər zənnindəyəm. Digər tərəfdən, inqilabçının məhəlli-fəaliyyəti [fəaliyyət yeri] kəndistan, arxadaşları əkinçilər olmalıdır. Binaənileyh [ona görə], "Əhrar" təşkilatına, kəndçilərdən ibarət olduğu üçün, söylədiyim nəzərlə baxmağa haqqım var idi. Və başqa bir əlacım da yox idi. Çünki hal-hazırda mövcud türk inqilabçıları nədənsə bu anacan millət bayrağı altında işləməkdən çəkinirlərdi. Şimdi iş dəyişərsə, mən də təbii məqamımı tutaram...

Şimdi keçək nə üçün çıxdım məsələsinə.

Burada mən arxadaşlarımı müqəssir görməyirəm. Çünki onların boynuna yüklənmiş vəzifəni, bacarıqlarının föv-





qündə olduğu üçün daşıyammazdılar. Siyasi bir təşkilat içərisində azı iki-üç nəfər təcrübə görmüş, siyasi məlumat toplamış və əqidələri ilə fəaliyyətləri yek-digərinə [bir-birinə] uyğun həmfikir adamlar bulunmalıdır və həmin adamlar yek-digərlərinə tamamiyyətlə etimad edər.

Bunlardan əlavə, təşkilatın daxilində möhkəm bir inzibat və doğru bir xətti-hərəkət bulundurmalıdırlar. Hər kəs öz müəyyən vəzifəsini daşıyıb, hamı bir başa tabe olmalıdır. Təşkilata daxil olanlar da quru sözlə deyil, həqiqi demokrat və fədakar bir demokrat olmalıdır və ilaxır. Bu şərtlərin heç biri "Əhrar" fraksiyasında baş tutmadı və tuta da bilməzdi. O təşkilata daxil olanlar inqilabın zərbələrini yemiş və sabiq hökumətdən narazı qalmış adamlardan ibarət idisə də, siyasətcə qətiyyən hazırlıqları yox idi.

İnzibatımız [qayda-qanunumuz] da o cəhətə görə təmin olunmadı ki, hər birimiz özümüzü sahibi-rəy bir müctəhid [söz sahibi, səlahiyyətli bir başçı] hesab edirdik. Müzakirəmiz nəticəsində bir rəyə gəlməyirdik və Parlamanda əksər övqat [çox vaxt] izhari-vücud edən [iştirak edən, özünü göstərən] üç üzvümüzdən, məsələ səsə qoyulduqda birimiz lehinə, birimiz əleyhinə barmaq qaldırırdıq, üçüncümüz də bitərəf qalırdıq. Sayımız 10 olduğu halda, bəzən Parlamanda fraksiyamızı tək bircə adam təşkil edirdi. Mütəbaqisi [yerdə qalanı] məzuniyyətdə öz işinə, öz gücünə məşğul olurdu...

Axırı iş müncər oldu [gəlib çıxdı] intriqaya. Proqramımızı səmimiyyətlə qəbul edib firqəmizə qeyd edilən ziyalılara kəc baxmağa başladıq. Bu cavanlar da mənimlə bərabər uzun bir müddət çalışıb-vuruşduqdan sonra işdən soyumağa başladılar. Məhəllərdə [yerlərdə] açılmış şöbələrdən gələn şikayətlər eşidilmədi. Mərkəzin də işləyəmməyəcəyi aşkara çıxdı. Bircə şöbəyə, yaxud bircə adama düsturüləməl [təlimatnamə], ya bir başqa kağız göndərilmədi...

Xülasətül-kəlam, mənə aşkar oldu ki, bu təşkilat siyasi bir firqə olaraq yaşamayacaqdır. Binaənileyh, mən bu təşkilatdan ayrıldım. Fəqət bu çıxışımdan yeganə məqsədim, bəndəni intixab edib Parlamana nümayəndə göndərən vətənimin və mənə sabiq fəaliyyətimdən naşi [ötrü] xüsusi etimad və etibar bəsləyən və bəlkə bu səbəbdən naşi firqəyə daxil olanların qarşısında həqiqəti bəyan təriqi [yolu] ilə vəzifeyi-milliyyəmi əda etməkdir [öz milli vəzifəmi yerinə yetirməkdir]. Başqa bir şey deyildir.

*Parlaman üzvlərindən:*
*Abdulla Əfəndizadə*

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Rəisi-vükəlanın [Baş nazirin] Qarabağ general qubernatorunun qurultayı dəvəti üçün sərf etdiyi məxaricatın təsdiqi haqqındakı təqriri isteması [rəsmi məktubu dinlənilməsi] nəticəsində 8,000 manatlıq məsarifatın təsdiqi qərara alınmışdır.
- Rəisi-vükəlanın Qarabağ general qubernatoruna mətbəə təsisi üçün məbləğ təxsisi [ayrılması] haqqındakı təqririn

isteması nəticəsində general qubernatorun ixtiyarında olan məbləğdən mətbəə təsisi üçün 200,000 manat sərf etməyə icazə verilməsi qərara alınmışdır.

**NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]**

- İşbu təşrini-saninin 9-da Qazaxdan Xariciyyə Nəzarətində bu məzmunda bir teleqraf alınmışdır:

Muncuqludan qayıdan Qoşa əhalisindən Kərbəlayı İmamqulu Hacı oğlu, Əli Kərbəlayı İmamqulu oğlu Kolanı kəndi ermənilәri tərəfindən qətl edilmişlərdir. Ermənilər tərəfindən 80 baş qaramal, bir araba müxəlləfat [əşya; ev əşyası] aparılmışdır.

- Axalkələk qəzasının Qokyo kəndi müvəkkili Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] bir ərzi-hal verib məlum etmişdir ki, 1918-ci il sənədə onların kəndi ermənilər tərəfindən təxrib edilib, 800 kənd əhalisindən hal-hazırda 40 nəfərədək dul qadın və ətfal [uşaqlar] qalmışdır ki, bir çox sərgərdanlıqdan sonra köylərinə qayıtmışlardısa da, evləri dağılmış, heç bir şeyləri də yoxdur. Müvəkkil rica etmişdir ki, onlara müavinət [kömək] edilsin.

- Maarif Nəzarəti tərəfindən xüsusi əmr[lər] məmuru Əlizadə cənabları milli məktəblərin milli şöbələri təftişinə təyin edilmişdir. Ümumi təftiş bu günlərdə başlanmalıdır.

- Məsai Nəzarəti [Əmək Nazirliyi] neft işlərində çalışan fəhlələrin maddi əhvallarının eyiləşdirilməsi haqqında Vükəla Şurasına geniş bir məruzə təqdim etmişdir.

**Darülfünun üçün meyit**

Darülfünun [Universitet] idarəsi Daxiliyyə Nəzarətinə müraciətlə rica etmişdir ki, sahibsiz qeyri-müsəlman meyitləri polis dairələrinə alınıb, oradan Darülfünuna göndərilməsi haqqında lazımi tədbir ittixaz edilsin [tədbir görülsün]. Meyitlər Darülfünunda tələbələr tərəfindən təşrih ediləcəkdir [yarılacaqdır].

**İran hüdudu mühafizəsi**

Daxiliyyə Nəzarəti Maliyyə Nəzarətinə məlum etmişdir ki, işbu sənənin mayısında Cavad qəzasında İran hüdudunu Şahsevən çapqınlarından mühafizə etmək qəsdi ilə 200 nəfərlik bir mühafizə dəstəsi təşkil edilmişdir. Nəzarət rica etmişdir ki, müvəqqəti olaraq dəstə Maliyyə Nəzarəti ixtiyarına keçsin.

**Ümumi tələbələr evi**

Darülfünun idarəsi Daxiliyyə Nəzarətindən [rica etmişdir ki,] Maqazinni və 2-nci Qanlıtəpə küçələri küncündə sabiq xəstəxana şəhər evinin ümumi tələbələr evi üçün verilməsi haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Ümumi tələbələr evi olmazsa, başqa yerlərdən dövləti darülfünunda [dövlət universitetində] təhsil üçün gələcək tələbələrin əhvalı nəhayət dərəcədə ciddi olacaqdır.

- Daxiliyyə Nəzarəti Dövləti Dəftərxanadan [Dövlət Dəftərxanasından] dövləti xidmətə daxil olanlara səmimi xidmətdə olmasını təhkim üçün qəsəm [and] verilmək haqqında qərar olub-olmadığını isticvabda bulunmuşdur [soruşmuşdur].

- Daxiliyyə Nəzarəti Vükəla Şurasına 50 min manat təxsisi [ayrılması] üçün bir məruzə təqdim etmişdir. İşbu məbləğlə Şamaxıda xüsusi evlər təmir edilib, dövləti idarələr yerləşdiriləcəkdir.

- Oymaq qəzasının Yeyti köyünün 61 evdən ibarət əhalisi Daxiliyyə Nəzarətinə müştərək bir istida [ərizə] verib, Azərbaycan təbəəliyinə qəbul olunmalarını rica etmişlərdir.

**PARLAMAN KOMİSYONLARINDA**

Parlamanın Ləvayehi-qanuniyyə [Qanun layihələri] komisyonuna zeyldə mərqum [aşağıda yazılan] qanun layihələri varid [daxil] olmuşlardır:

1) Təşrini-əvvəlin 30-da Ədliyyə Nəzarətindən "Məhakimi-hüquqiyyədə üsuli-mürafiənin bəzi nöqtələrinin təbdili haqqında" [Hüquq məhkəmələrində mühakimə prosesinin bəzi nöqtələrinin dəyişdirilməsi haqqında];

2) Təşrini-saninin 1-də Maarif Nəzarətindən "Teatro biletlərindən alınan vergilərin azalması haqqında";

3) Təşrini-saninin 5-də Ziraət Nəzarətindən [Əkinçilik Nazirliyindən] "Dənizdə balıq ovlamaq hüququna aid olan yarlıq, bayraq və biletlər tədiyəsinin təbdili [ödənişinin dəyişdirilməsi] haqqında" qanun layihələri.

**BAKI XƏBƏRLƏRİ**

**"İzçi" təşkilatında**

Dum meydançası Haşımovun mülkündə, "Müsavat" firqəsi idarəsində işbu təşrini-saninin 6-dan etibarən hər gün axşam saat 3-dən 6-ya qədər ərizələr qeyd və qəbul olacaqdır. İştirak etmək istəyən arxadaşlar oraya müraciət etməlidirlər.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Ticarət, Sənaye və Ərzaq Nəzarətinə müraciətlə məlum etmişdir ki, Azərbaycan dəmiryollarına Yalama mövqifi [stansiyası] yaxınlığındakı dairə üçün veriləcək icarə qiyməti verilməmişdir. Zira odun anbarı 1919-cu sənəsinin ağustos ayında Bələdiyyə İdarəsi tərəfindən təhvil alınmışdır. Əlavə şərait üzrə anbarlar üzərində olan borc və başqa vergilər fəqət verilən gündən Bələdiyyə İdarəsi öhdəsinə keçəcəkdir. O anadək vergilər Ticarət və Sənaye Nəzarəti tərəfindən verilmişdir.

**Bələdiyyə İdarəsi və "Elektrik" cəmiyyəti**

"Elektriçeskaya sila" səhmdaran [səhmdarlar] cəmiyyəti Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətlə rica etmişdir ki, abonentlər miyanında [arasında] işığı təqsim etmək [paylamaq] üçün xüsusi nəzarət [müfəttişlik] təyin etmək haqqında təşəbbüsatda bulunmuşdur. Nəzarət [Nazirlik] təliqəni [rəsmi məktubu] Bələdiyyə İdarəsinə göndərib, kəndi nəzəriyyatının müstəcəl [təcili] surətdə bəyanını rica etmişdir.

**Maarif kursları**

Mərkəzi Fəhlə Klubu tərəfindən məhəllindəki [yerlərdəki] klublar cənbində [nəzdində] türk-rus lisanlarında maarif kursları güşad edilir [açılır]. Siyahı və qeydi-qəbul başlanmışdır. Bundan başqa, Mərkəzi Klub ali bir məktəb də açmaq ehtimalındadır ki, orada siyasi və iqtisadi elmlər oxunacaqdır.

**İşsizlərin nəfy edilməsi**

İşbu təşrini-saninin 4-ü gündüz saat 12 radələrində "Kafe de Paris" lokantası polis tərəfindən əhatə edilib, yüz nəfərədək işsizlərdən imza alınmışdır ki, 3 günədək Azərbaycan daxilindən çıxsınlar. Məzkur [adı çəkilən] lokanta və ətrafında ancaq pul alış-verişi edən hariflər dolaşırlardı. Bundan əlavə, şəhərin qeyri nöqtələrində də tövqiflər [həbslər] icra edilmişdir.

**Hadisat**

Şamaxı qəzasının Lahıc qəsəbəsinin sakini Ağakərim Kərbəlayı Səfdər oğlu Bakı qubernatoruna şikayət etmişdir ki, öz zəmisində cüt sürərkən onu Məşhədi Hacı Məşhədi oğlunun təhriki ilə Məşhədi Məhəmməd Qulu oğlu güllələyib bir öküzünü öldürmüşdür.

**Ziyalılar lazımdır**

Bakı Bələdiyyə İdarəsinin intixabat [seçki] işi üçün Bələdiyyə İdarəsinə məvaciblə camaatın miqdarı siyahılarını tərtibə salmaq üçün ziyalılar lazımdırlar. Xahiş edənlər Fəhlə Klubunun müqabilində Haşımovun mülkündə "Müsavat" firqəsinin Bakı Komitəsinə müraciət etməlidirlər.

**İşçilərə**

Şənbə günü təşrini-saninin 8-də gündüz saat 2-də Balaxana krujokunda iqtisadiyyata və zərurati-müqtəziyyəyə [ən lazımlı, zəruri şeylərə] dair müzakirə üçün Sabunçu, Ramana, Zabrat və Balaxana dairəsində çalışan fəhlələrin iclası təyin edilmişdir. İclasda Zəngəzur nümayəndəsi və Parlaman üzvü Sadıq Axundzadə isbati-vücud [iştirak] edib, hali-hazırın icabatından [ehtiyaclarından] ətraflıca bir məlumat verəcəkdir.

**BİRJADA**

Kerenski minlik 990-1050 manata qədər, 250-lik kəndi qiymətindən 3 faiz və xırda 15 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 900-1700 manata qədər, yüzlüyü 250-300 manata qədər və xırdası isə 50-90 faizə qədərdir.

Türkiyə kağız lirəsi 195 manat və Zaqafqaz bonu min manata 12 manat fəzlədir.

Türkiyə altun lirəsi 925 manat, altun onluq 1050 manat, imperial 700 manat və Avstriya altunu 2000 manatdır.

Gümüş manat 80 manat və xırda gümüş para 30 manatdır.

Susinin topu 1020 manata gedir.

**FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR**

**[Cəmiyyəti-Xeyriyyədə]**

**14 təşrini-sani iclası**

Qəbiristanda şühəda [şəhidlər] şərəfinə təsis olunan abidə xüsusunda səşənbə [çərşənbə axşamı] günü təşrini-saninin 4-də axşam saat 7-də Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin Təmirat [Tikinti] şöbəsi – ki ibarət olsun zeyldə mündəric [aşağıda yazılan] şöbə üzvlərindən – iclasa dəvət edilmişlərdi:

1) Parlaman Divani-rəyasət nümayəndəsi;
2) Ziyalılar Cəmiyyəti tərəfindən nümayəndə;
3) Bələdiyyə İdarəsinin Təmirat [Tikinti] şöbəsi üzvü;
4) Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi tərəfindən nümayəndə;
5) İsmayıl bəy Səfərəliyev;
6) [Qəni] Məhəmmədov;
7) Əbdüləli bəy Əmircanov;
8) Hacı Qasımov;
9) Əsədulla Əhmədov.

Bunlardan: 1) Divani-rəyasət nümayəndəsi; 2) Ziyalılar Cəmiyyəti nümayəndəsi; 3) Bələdiyyə İdarəsinin Təmirat şöbəsi üzvü; 4) Ünas Cəmiyyəti-Xeyriyyəsi və 5) İsmayıl bəy Səfərəliyev iclasa təşrif gətirməmişlərdi.

Cəmiyyəti-Xeyriyyənin sədri Qasım Qasımov işbu məsaili-yövmiyyəni [gündəlik məsələləri] pişnihad [təqdim] etmişdir:

1) Abidə tikilməsinə məşğul olan Xəlil Məhəmmədovun hesabı;
2) Abidənin nasıl təsis edilməsi;
3) Elan;
4) Abidə tikilməsinə məşğul olan mühəndisə həqqül-zəhmət [zəhmət haqqı] parası.

Məsələlər birər-birər müzakirə edildikdə böyləcə qərar verilmişdir:

1) Hacı Qasımova vagüzar edilmişdir [tapşırılmışdır] ki, Xəlil Məhəmmədovun hesabını təhqiq etsin və idarə sədri Qasım Qasımova təklif edilmişdir ki, işbu təhqiqat yapılana qədər Xəlil Məhəmmədova təkrarən 5000 manat para versin.

2) Məclis qərar vermişdir ki, abidədən ötrü nə qədər daş lazım olsa, idarədən alınıb yonulmasını və tikilməsini podrata versin.

3) Hacı Qasımova vagüzar olunmuşdur ki, qəzetə vasitəsilə elan versin ki, abidə tikilməsini kim podrata götürmək istəyirsə, təşrini-saninin 21-nə qədər şəraitini idarəyə təklif etsin.

4) Abidə mühəndisi Skibinskiyə həqqül-zəhmət olaraq 3,000 manat verilməsinə məclis qərar vermişdir.

**İclas təxirə düşmüşdür**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi idarəsinin dünkü gün təşrini-saninin 5-nə dəvət olunmuş iclası bu gün ayın 6-da axşam saat 7-yə təyin edilmişdir.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər] bunlardır:

1) Yetimlər yurdu xüsusunda;
2) Qaçqınlara dair;
3) Təzəpir məscidinin təmiri xüsusunda;
4) İdarəyə varid [daxil] olmuş bəzi ərizələr və:
5) Məsaili-cariyyə [cari məsələlər].

**Hesabdar**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə, Cəmiyyətin hesabını müsəlmanca saxlamaq üçün Əliəkbər Həsənov hesabdar təyin edilmişdir.

**Qaçqınları himayə**

Qars qaçqınlarından Əli nam [adlı] bir çocuğu Bakı Müsəlman Cəmiyyəti-Xey-

riyyəsi katibi Hacıağa Əzizbəyov evində saxlamaq üçün götürmüşdür.

**"Müsavat"da**

**Dükançıların şikayəti**

Dəniz kənarının dükançıları Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsinə, mülk sahibləri dükanların kirayəsini həddindən artıq bahalandırması haqqında şikayət etmişlərdir. Komitə bunların ərzi-halını "Müsavat" fraksiyasına göndərmişdir.

**Çörəyin bahalanması**

Təşrini-saninin 3-də "Müsavat"ın Bakı Komitəsi iclasının, çörəyin möhtəkirlər tərəfindən bahalanması və fəhlələrin maaşı artırılması haqqında olan qətnaməsi fraksiyaya göndərilib, təşəbbüsat edilməsi rica olunmuşdur.

**Əmirhacıyanda**

Əmirhacıyan camaatı "Müsavat"a müraciətlə Sabunçu-Suraxana arasında 5-ci körpüdə bir platforma tikdirilməsini arzu etmişlərdir. "Müsavat"ın Bakı Komitəsi bu ərizəni Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] göndərərək, camaatın işbu arzusunun Nəzarət tərəfindən dərəceyi-qəbula keçməsini rica etmişdir.

**ERMƏNİSTANDA**

**İngiltərə və Fransanın Ermənistan ilə münasibatı**

"Aşxatavor" yazır:

*"Parisdən vürud edən [gələn] teleqrafnamələr xəbər verirlər ki, Fransa və İngiltərə hökumətləri arasında 1915-ci sənə müahidənaməsı [sazişi] əsasları üzərində etilaf hüsula gəlmişdir [razılıq əldə olunmuşdur]. Şu müahidənamə mövcibincə [sazişə əsasən], Fransa Suriyaya, Kilikiya və Sivasa qədər Kiçik (?) Ermənistanın bir hissəsini işğal etməli imiş. Anadoluda mütəədid [çoxsaylı] hərbi məntəqələr bərpa edilərək [qurularaq], Müttəfiqlər tərəfindən işğal ediləcəkmiş. Ermənistana gəlincə, onun təəssüs və təşəkkül etməsinə müavinətdə bulunmaq üçün Düvəli-müttəfiqə [Müttəfiq dövlətlər] tərəfindən 100 min kişilik [nəfərlik] bir ordu da veriləcəkmiş."*

**Ermənistan mandatı məsələsi**

"Slovo" qəzetəsinin yazdığına görə, "Exo de Pari"nin Nyu-Yorkda olan müxabiri teleqraf edir ki, Amerika kəndisinə təklif edilən Ermənistan mandatını qəbul etmişdir. Bəzi təsəvvürata görə, bu xəbər nəşr edilməyirmiş. Qəzetə bu xəbər münasibətilə yazır ki:

*"Ermənilər üçün sürurəngiz [sevindirici] olan bu xəbərin nəşrinə sürət etmə[mə]mizin səbəbi mövsuq mənabedən [etibarlı mənbələrdən] onun doğruluğu[nu] bəkləməmiz olmuşdur. Bu gün isə mövsuq bir mənbədən biz öyrənə bilmişiz ki, Qardaşyan Amerikadan teleqraf edərək, Parisdə olan erməni milli mürəxxəslərinə [nümayəndələrinə] bildirmişdir ki, «qarşımızdakı 10 gün zərfində çıxarılacaq gözəl siyasi qərarlar ermənilərin əziyyətinə intəha [son] qoyacaqdır»."*

**Yeni çeklər**

Ermənistan Maliyyə naziri bu ayda 100 milyon rubləlik yeni çeklər buraxmaq xəyalındadır. Çekləri buraxmaq məsarifatı üçün 800 min rublə təxsis edilmişdir [ayrılmışdır].

**Fövqəladə İstintaq Komisyonu**

Ermənistan Ədliyyə Nəzarəti tərəfindən Parlamana idxal edilmiş qanun layihəsində Fövqəladə İstintaq Komisyonu saxlamaq məsarifatı üçün 100 min rublə buraxılması istənilir.

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək.

Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**İstanbul doktor və bakterioloqu**
**Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək. Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası.

Telefon nömrə: 49-87.

*1470*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Otaq axtarıram**

Krımlı gənc bir müsəlmana bir otaq lazımdır. Otaq əvəzinə ailə çocuqlarına türkcə, rusca və ərəbcə dərs verə bilər.

Adres: "Təbriz" mehmanxanası, nömrə 13.

*14014*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 118. "Marikeni ... İşimin sağ kənarına keçilməkdədir": nöqtələrin yerində bir neçə söz tamamilə silinmişdir.

**Qəzetələrdən**

səh. 120. "Presburq" [Pressburg]: Slovakiyanın paytaxtı olan Bratislava şəhərinin 1919-cu ilə qədərki adı.

səh. 121. "Rusiyadan əlinizi çəkiniz!" [Hands Off Russia!]: Rusiyada Vətəndaş müharibəsi dövründə, 1919-cu ildə Britaniyalı sosialistlər tərəfindən başladılan kampaniya. Bu kampaniya bolşevikləri dəstəkləmək və Britaniya hökumətinin ağqvardiyaçılara hərbi köməyini pisləmək məqsədi güdürdü.

**Sülh ətrafında**

səh. 124. "Beşlər Şurası" (yaxud Böyük Beşlik): ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya.

"Kionqa" [Kionga]: Mozambikin şimal-şərqində ərazi. Almaniya ilə Portuqaliya arasında münaqişə predmeti olmuş, Birinci Dünya müharibəsindən sonra Portuqaliyaya verilmişdir.

**Türk Ədəmi-Mərkəziyyət**
**"Müsavat" firqəsinin**
**İkinci qurultayı proqramı**

səh. 125. "müqərrər olan düxuliyyə vərəqəsini": qəzetdə "müqərrər" sözü təhrif edilmişdir.

"Qurultay 1919 sənəsi dekabr ayının": qəzetdə "dekabr" yerinə "noyabr" getmişdir.

səh. 126. "1) Siyasəti-xariciyyədə:": bu maddənin altındakı bəndlər qəzetdə ərəb əlifbasının hərf sırasına uyğun olaraq işarələnmişdir.





"2) Daxili siyasətdə:": bu maddənin altındakı bəndlər qəzetdə ərəb əlifbasının hərf sırasına uyğun olaraq işarələnmişdir.

**İran işləri**

səh. 127. "Cəngəlilər" (yaxud cəngəllilər): İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatı (Cəngəlilər hərəkatı) iştirakçıları.

**Dağıstanda**

səh. 129. "Apşeron alayı" (81-ci piyada Apşeron polku): Rusiya imperiyası ordusunun hərbi hissəsi. Dislokasiya yeri Vladiqafqaz olan Apşeron polku bir çox müharibədə, o cümlədən Birinci Dünya müharibəsində iştirak etmiş və 1918-ci ildə bolşeviklər tərəfindən ləğv edilmişdir.

**Yeni bələdiyyələrin mədənişləşməsi**
**və milliləşməsinə dair**

səh. 130. "çarvadar": yük heyvanı ilə yük daşıyan adam.

"çodar": mal-qara alveri edən adam.

səh. 131. "sol gözü kənarda (yəni müsəlmanlarda) olsaydı": qəzetdə "olsaydı" yerinə "olmasaydı" getmişdir.

**Nəzarətlərdə**

səh. 134. "Muncuqludan qayıdan Qoşa əhalisindən...": Muncuqlu, Qoşa Tovuz rayonunun kəndləridir; qəzetdə kəndlərin adı təhrif edilmişdir.

"Maqazinni və 2-nci Qanlıtəpə küçələri": Bakıda, indiki Süleyman Rüstəm və Mikayıl Rəfili küçələri.

**Ermənistanda**

səh. 138. "Kiçik (?) Ermənistanın": qəzetdə belədir; sual işarəsi qəzetdə var.